# Ensuring food security and public policy

**Gunel Malikli**
Leading researcher of the Institute of Philosophy, PhD in Philosophy,
Associate Professor. Azerbaijan.
E-mail: gunelmelikova88@gmail.com
https://orcid.org/0000-0001-6884-1744

**Abstract.** Renewal and progress in all spheres of life in our republic are clearly visible. From this point of view, the strengthening of modern trends in the agricultural sector and the adoption of serious steps should be considered as an important achievement. The increase in achievements is not accidental, it depends on certain factors. First of all, it is worth noting that under the leadership of President Ilham Aliyev, serious reforms are being carried out in the agricultural sector. Strengthening the food security of the population, as well as creating public resources to ensure food security in emergencies and natural disasters, is also important. Decrees and orders of the head of state, relevant programs approved by the head of state expand our country's food security capabilities and create more reliable soil in this area.
**Keywords:** state policy, agricultural sector, food security, food security, agriculture.

http://dx.doi.org/10.29228/edu.248
**To cite this article:** Malikli G. (2020) *Ensuring food security and public policy.* «Scientific work», Vol. 34, Issue I, pp. 113-118.
**Article history:** Received – 12.04.2020; Accepted – 22.04.2020

## Ərzaq təhlükəsizliyi və dövlət siyasəti

**Günel Məlikli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi, s.e.f.d. Azərbaycan.
E-mail: gunelmelikova88@gmail.com
https://orcid.org/0000-0001-6884-1744

**Annotasiya.** Respublikamızın həyat fəaliyyətinin bütün sahələrində yeniləşməni və irəliləyişi aydın şəkildə görmək mümkündür. Bu baxımdan aqrar sektorda davamlı müasir meyillərin güclənməsi, ciddi addımların atılması önəmli nailiyyətlərdən biri sayılmalıdır. Nailiyyətlərin artması təsadüfi olmayıb, müəyyən amillərlə bağlıdır. İlk növbədə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatı sahəsində ciddi islahatlar aparılır. Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, habelə fövqəladə hallar və təbii fəlakətlər zamanı bu sahənin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması dövlətimiz tərəfindən vacib hesab edilir və bu istiqamətdə əhəmiyyətli addımlar atılmaqdadır. Azərbaycan dövlət başçısının bu məqsədlə verdiyi fərman və sərəncamlar, təsdiq etdiyi müvafiq proqramlar ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində ölkəmizin imkanlarını günü-gündən genişləndirməkdə, qeyd edilən sahə üzrə daha etibarlı zəmin yaratmaqdadır.
**Açar sözlər:** dövlət siyasəti, aqrar sektor, ərzaq təhlükəsizliyi, ərzaq təminatı, kənd təsərrüfatı.

http://dx.doi.org/10.29228/edu.248
**Məqaləyə istinad:** Məlikli G. (2020) *Ərzaq təhlükəsizliyi və dövlət siyasəti*. «Elmi əsərlər», № 1 (34), səh. 113-118.
**Məqalə tarixçəsi:** göndərilib 12.04.2020; qəbul edilib – 22.04.2020

## Giriş / *Introduction*

**Məqsəd:** aparılan tədqiqatın məqsədi mövzunun öyrənilməsi zamanı sistemli və kompleks yanaşmadan istifadə etməklə ərzaq təhlükəsizliyi probleminin təhlilini həyata keçirməkdir.
Ərzaq təminatı qlobal problem olmaqla iqtisadi, sosial, texnoloji, coğrafi, tarixi, siyasi və s. amillərin təsiri ilə formalaşmış və bu problemin həlli sosial-iqtisadi, siyasi, texniki-texnoloji, ekoloji siyasətin həyata keçirilməsi ilə bağlı olmuşdur.
**Metodologiya:**Ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Konstitusiya ilə həyata keçirdikləri tədbirlər tədqiqatın nəzəri-metodoloji əsaslarını təşkil edir. Ümumiyyətlə, tədqiqatın aparılmasında sistemli yanaşma prinsipi tətbiq olunaraq siyasi təhlilin analiz və sintez, müqayisəli, statistik təhlil, struktur-funksional analiz metodlarından istifadə edilmişdir. Mövzunun işlənməsində istifadə olunan metodoloji yanaşma problemin daha dərindən və geniş aparılmasına əhəmiyyətli təsir göstərir.
**Elmi yenilik:** Ümumiyyətlə, tədqiqatın elmi yeniliyini müəyyən etmək üçün ilk növbədə problemin qoyuluşuna diqqət yetirmək lazımdır. Bu tədqiqat işinin yeniliyi isə Azərbaycanın siyasi elmi üçün aktual olan milli inkişaf sistemində ərzaq təhlükəsizliyi probleminin araşdırılmasına diqqətin artmasından ibarətdir. Nailiyyətlərin artması təsadüfi olmayıb müəyyən amillərlə bağlıdır. İlk növbədə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatı sahəsində ciddi islahatlar aparılır. Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması, eyni zamamda fövqəladə hallar və təbii fəlakətlər zamanı ərzaq təhlükəsizliynin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması dövlətimiz tərəfindən vacib hesab edilir və bu istiqamətdə əhəmiyyətli addımlar atılmaqdadır. Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Prezident İlham Əliyevin verdiyi sərəncamlar ərzaq təhlükəsizliyi sahəsində yüksək nəticə vermişdir.
Ərzaq təminatı qlobal problem olmaqla iqtisadi, sosial, texnoloji, coğrafi, tarixi, siyasi və s. amillərin təsiri ilə formalaşmış və bu problemin həlli sosial-iqtisadi, siyasi, texniki-texnoloji, ekoloji siyasətin həyata keçirilməsi ilə bağlı olmuşdur. Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi də daha da yaxşılaşdırılması dövlətimiz tərəfindən vacib hesab edilir.

Respublikamızın həyat fəaliyyətinin bütün sahələrində yeniləşməni və irəliləyişi aydın şəkildə görmək mümkündür. Bu baxımdan aqrar sektorda davamlı müasir meyillərin güclənməsi, ciddi addımların atılması önəmli nailiyyətlərdən biri sayılmalıdır. Nailiyyətlərin artması təsadüfi olmayıb, müəyyən amillərlə bağlıdır. İlk növbədə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatı sahəsində ciddi islahatlar aparılır.

Belə ki, ölkə prezidentinin "Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamından sonra Yeni toxumçuluq kompleksinin inşasına başlanıldı və işlər qısa müddət ərzində tamamlandı.

## Əsas hissə / *Main Part*

Görülən tədbirlər ölkədə yüksək keyfiyyətli məhsuldar bitki sortlarının toxumlarına olan ehtiyacın ödənilməsinə, toxumluq məhsullarının artmasına, idxaldan asılılığın azaldılmasına, ixrac potensialının güclənməsinə önəmli təsir göstərdi.

Kənd təsərrüfatında yeniliklər sırasında bu sahədəki fəaliyyətlərin elektronlaşdırılmasını da qeyd etmək vacibdir. Bu, məlumatların elektron qaydada hazırlanması və toplanılması, araşdırılması və müvafiq qurumlara, strukturlara ötürülməsi baxımından çox əhəmiyyətlidir.

Bu, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin mənimsənilməsi və tətbiqi proseslərini də asanlaşdıran amildir. Aparılan islahatlar, görülən tədbirlər, tətbiq olunan yeniliklər aqrar sahəyə marağı xeyli artırmışdır. Bu, yeni, təqdirəlayiq yanaşmadır. Taxılçılıq təsərrüfatlarının yaradılması istər ölkəmizin özünütəminatına, istərsə də xaricdən idxala yönələn maliyyə sərfiyyatının azalmasına xidmət edir.

Dövlətin əsas siyasəti idxaldan asılılığı minimuma endirmək, ərzaq bolluğu yaradıb ixrac potensialına münbit şərait yaratmaqdır. Taxılçılıqla respublikanın 66 rayonu məşğuldur. 10 iqtisadi rayondan 7-si taxıl əkinlərinin 95,8%-ni əhatə edir. Ümumi taxıl sahəsinin 66,6%-i payızlıq buğda, 26,7%-i arpa, 6,7%-i qarğıdalı və digər dənli bitkilərdən ibarətdir.Bəli, Azərbaycan təkcə sənayedə yox, həm də kənd təsərrüfatında, xidmət sahəsində və s. elə nailiyyətlər əldə etmişdir ki, bu, ümumən, nəticələrinə görə çox ciddi marağa səbəb olmuşdur.[2]

Ərzaq təminatı qlobal problem olmaqla iqtisadi, sosial, texnoloji, coğrafi, tarixi, siyasi və s. amillərin təsiri ilə formalaşmış və bu problemin həlli sosial-iqtisadi, siyasi, texniki-texnoloji, ekoloji siyasətin həyata keçirilməsi ilə bağlı olmuşdur. Təbiidir ki, ərzaq təhlükəsizliyinə yanaşmada təbii ehtiyatların mövcudluğu, ondan səmərəli istifadə ilə yanaşı, iqtisadiyyatda dövlətin rolu və siyasətin düzgün formalaşması həlledici rola malikdir.[3, s.181]

Ümumiyyətlə isə ərzaq təhlükəsizliyi anlayışına üç ünsür daxildir:

1. Yüksək keyfiyyətli ərzaq məhsullarının mövcudluğu dövlətin ərzaq istehsalı sahəsinin inkişafına və istehsal olunan ərzaq məhsullarının keyfiyyətinə nəzarəti ilə bağlıdır.

2. İnsanların bu ərzağı istehlak etməsinə şəraitin yaradılması- sosial siyasətlə bağlı bir məsələdir.

3. Ərzağın tərkibinin qidalandırıcı keyfiyyətliliyi istehsalda istifadə edilən xammalın növündən, keyfiyyətindən, ərzağın istehsal texnologiyasından asılıdır.[5, s.22]

XX əsrin sonlarından etibarən ərzaq təhlükəsizliyi daha çox qlobal anlam daşıdığından bir sıra beynəlxalq təşkilatlar dünyada mövcud olan ərzaq ehtiyatlarını araşdırır, onları proqnozlaşdırır və müxtəlif dövlətlərin hökumət orqanlarını mövcud problemlə bağlı zəruri informasiyalarla təmin edirlər. Bu isə onunla bağlıdır ki, ölkələrdəki mövcud olan ehtiyatlar ildən ilə əhəmiyyətli dərəcə də azalır. Ölkənin ərzaq təhlükəsizliyi çoxsaylı destruktiv tendensiyaların, o cümlədən təbii fəlakətlərin təsirinə məruz qalır.[1, s. 24, 25]

Bu problemlə bağlı 1996-cı ildə Vaşinqtonda "Dünyanın gələcəyini öyrənən cəmiyyət", Vyanada (Avstriya) "Gələcəyin problemləri institutu", Niderlandda "Bəşəriyyət 2000-ci ildə" beynəlxalq fondu yaradılmışdır. 1968-ci ildə isə "Ümumdünya sisteminin inkişafını modelləşdirən və proqnozlaşdıran "Roma klubu" Beynəlxalq təşkilatı yaradılmışdır. 1974-cü ildə Romada BMT-nin ərzaq təhlükəsizliyinə həsr edilmiş "Ümumdünya ərzaq konfransı" keçirilmişdir. Bu konfransda ərzaq qıtlığına və aclığa qarşı BMT üzvü olan ölkələrin birgə mübarizə etməsini təsbit edən ümumbəşəri Bəyannamə qəbul edilmişdir. Bəyannamədə ərzaq təhlükəsizliyini yaradan sosial səbəblərin aşkar edilməsi, öyrənilməsi və həll edilməsi istiqamətində birgə fəaliyyət nəzərdə tutulmuşdur. Elə bu məqsədlə də 1974-cü ildə "Ümumdünya ərzaq şurası" yaradılmışdır ki, bu şura ümumdünya ərzaq proqramı təşkilatı kimi fəaliyyət göstərir, dünya ölkələrində ərzaq təhlükəsizliyi proqramının hazırlanması, həyata keçirilməsində yaxından iştirak edir. [5, s.23]

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaq. [4, s. 99, 100]

Ərzaq probleminin aradan qaldırılması üçün həmçinin ərzaq köməkliyi edən beynəlxalq və regional təşkilatlar yaranmışdır. Belə təşkilatlardan biri də dünyada ərzaq və kənd təsərrüfatı səhasi ilə məşğul olan FAO (Ərzaq və Kənd Təsərrüfatı təşkilatı) hesab edilir. Bu təşkilat 1945-ci ildə

(Roma) yaradılmışdır. Bu təşkilata 174 ölkə və Aİ dövlətləri daxildir. 5 ərazi şöbəsi vardır: (Afrika üzrə; Asiya və Sakit okeanı üzrə; Avropa; Latın Amerikası, Karib hövzəsi və Yaxın Şərq üzrə). Bu təşkilat əsasən öz üzvlərinin üzvlük haqqı hesabına maliyyələşdirmə həyata keçirir. FAO əhalinin təmin olunması barədə məlumat toplayır, ərzaq təhlükəsizliyi problemi yaşayan ölkələrə ərzaq köməkliyinin edilməsini və kənd təsərrüfatının inkişafına yardım göstərilməsini həyata keçirir. Digər bir təşkilat isə 1977-ci ildə kənd təsərrüfatının inkişafı üzrə Beynəlxalq Fond (İFAD) hesab olunur. Ərzaq Təhlükəsizliyi üzrə Beynəlxalq Assosiasiya isə (International Association for Food Protection) 1911-ci ildə ABŞ-da yaradılıb. İllər boyu bu təşkilat müxtəlif adlarla fəaliyyət göstərib. 1999-cu ildə bu təşkilatın adı indiki halında, yəni Ərzaq Təhlükəsizliyi üzrə Beynəlxalq Assosiasiya olaraq adlandırılmışdır. Təşkilatın əsas məqsədi dünya əhalisini ərzaq təhlükəsizliyi haqqında məlumatlarla təmin etməkdir.

Ərzaq köməkliyi problemində beynəlxalq təşkilatlarla birgə ayrı-ayrı dövlətlər də iştirak edir ki, bunlardan ABŞ-ı göstərmək olar. 1960-cı illərin ortalarında ümumdünya ərzaq köməkliyinin 96 %-i ABŞ-ın payına düşürdü. 1960-cı illərdə ABŞ tərəfindən daha çox köməklik Tunis, Filippin, Cənubi Vyetnam, Hindistan, Pakistan və Cənubi Koreyaya göstərilmişdir. 1970-ci illərdə isə Misir və Çinə daha çox yardım verilmişdir. 1980-ci illərdə isə ərzaq köməkliyi məsələsində Qərbi Avropa dövlətlərinin rolu artmışdır.

Dünyadakı ölkələrin məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Ərzaq təhlükəsizliyinə nail olmaq üçün bir sıra vacib vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur: Ölkədə ərzaq məhsulları istehsalını artırmaq, əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək, ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək, ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitini yaxşılaşdırmaq. [5, s.23,24]

Bununla yanaşı, ərzaq təhlükəsizliyini həm daxili, həm də xarici təhlükələrlə bağlamaq lazımdır. Bu zaman daxili amillərin təsir miqyası xarici amillərdən daha çoxdur.Belə ki, keçən əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəlində bütövlükdə Azərbaycan iqtisadiyyatının, xüsusilə aqrar-sənaye kompleksinin tənəzzülünə gətirib çıxarmış səriştəsiz idarəolunmanı deyilənlərə əyani misal göstərmək olar. Azərbaycan Respublikası 1991-ci ildən etibarən dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Lakin keçən əsrin 90-cı illərin ortalarında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Müstəqil Dövlətlər Birliyi məkanında analoqu olmayan torpaq islahatlarının həyata keçirilməsi, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmlərinin formalaşdırılması, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanması və bu qəbildən olan digər tədbirlər ərzaq təhlükəsizliyi sferasında daxili amillərin təsir miqyasının yalnız müsbət müstəvidə cərəyan etməsini şərtləndirdi. [6, s. 512]

1996-cı ildən beynəlxalq təşkilatlarla birgə həyata keçirilən ərzaq proqramı yoxsulluğun azaldılması ilə bərabər həmçinin ərzaq təhlükəsizliyinin inkişafına səbəb oldu. Sevindirici haldır ki, ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanın daxili imkanlar hesabına əsas ərzaq məhsulları ilə təminatına xüsusi fikir verilmiş və buna nail olunması üçün məqsədyönlü tədbirlər görülmüşdür. Müstəqilliyimizin ilk illərində bu cür addım atmaq həqiqətən də böyük cəsarət tələb edirdi. Bu isə, ilk növbədə, öz ölkəsinin parlaq gələcəyinə inamla baxan, uzaqgörən siyasətçi Heydər Əliyevin liderlik gücündən və qabiliyyətindən qaynaqlanırdı. O, gələcəyə ümidlə baxır və inanırdı ki, qısa müddətdən sonra ölkəmiz ən irimiqyaslı sosial layihələri gerçəkləşdirmək iqtidarında olacaq. Bunun üçün isə qarşıda həlli vacib olan bir neçə məsələ dururdu.

Ölkəmizdə ərzaq təhlükəsizliyi ilə bağlı özünütəminetmə səviyyəsinə görə: mal əti 92%, qoyun əti üzrə 99%, quş əti üzrə 98,6% , yumurta üzrə 100%, süd və süd məhsulları üzrə 80%, taxıl üzrə 60%, tərəvəz üzrə 100%, bostan məhulları üzrə 100% və s. daxili istehsal hesabına təmin olunub.

Özünü təminetmə səviyyəsinin 100 faizə çatdırılması, kənd təsərrüfatında müasir texnika və texnologiyanın tətbiqi, toxum fondunun yaradılması və s. dövlətin qarşısında duran əsas vəzifələrdən biridir.[2]

Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi son nəticədə ölkəmizin bir çox strateji ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə gətirib çıxarmışdır. Azərbaycan dövlət başçısının bu məqsədlə verdiyi fərman və sərəncamlar, təsdiq etdiyi müvafiq proqramlar ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində ölkəmizin imkanlarını günü-gündən genişləndirməkdə, qeyd edilən sahə üzrə daha etibarlı zəmin yaratmaqdadır.Belə ki, ölkədə gedən sürətli sosial inkişaf bütövlükdə vətəndaşların maddi vəziyyətinin yaxşılaşdırılması və həyat tərzinin yüksəldilməsinə, ərzaq təhlükəsizliyinin təmin edilməsinə istiqamətləndirilmişdir.

“Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı” 2001-ci il Prezident Heydər Əliyevin Sərəncamı ilə təsdiq olunmdu, “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” qəbul olundu. 2008-ci ildə Prezident İlham Əliyev “Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının hazırlanması haqqında” Sərəncam imzalandı və “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” ərzaq təhlükəsizliyi sahəsində yüksək nəticə verdi. “Azərbaycanda siyasi islahatlar çox cəsarətlə aparılır. Bu da bizim prinsipial və düşünülmüş seçimimizdir. İqtisadi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir. Bu zəmin əsasında Azərbaycanda güclü sosial siyasət aparılır” deyən Azərbaycan Prezidenti İlham Əliyev hesab edir ki, cəmiyyət həyatındakı fundamental dəyişikliklər hüquqi-siyasi islahatların dərinləşdirilməsini, inkişaf etmiş Qərb dövlətlərinin mütərəqqi demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır. [7, s. 275]

## Nəticə / *Conclusion*

Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması, habelə fövqəladə hallar və təbii fəlakətlər zamanı ərzaq təhlükəsizliynin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması dövlətimiz tərəfindən vacib hesab edilir və bu istiqamətdə əhəmiyyətli addımlar atılmaqdadır.

## Ədəbiyyat / *References*

1. Abbasov İ. Ərzaq Təhlükəsizliyi və Kənd Təsərrüfatının prioritet İstiqamətləri. Bakı: “Elm və Təhsil” 2011. 640 s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı http://www.stat.gov.az
3. İbrahimov İ. Aqrar iqtisadiyyat. Bakı, 2016.
4. İnkişafın Azərbaycan Modeli: Bakı, 2011. İdeya rəhbəri və ön sözün müəllifi: Ramiz Mehdiyev; buraxılışa məsul Bəxtiyar Sadıqov. 204 s
5. Məlikli G. Dövlət təhlükəsizliyində sosial təhlükəsizlik və ərzaq təhlükəsizliyi problemi// Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi. Elmi əsərlər məcmuəsi, 2013, №1 (20).
6. Müasir Azərbaycan dövrün baxışında. I cild. Bakı, 2011. “Azərbaycan” qəzetinin redaksiyası, buraxılışa məsul Bəxtiyar Sadıqov. 528 s.
7. Müasir Azərbaycan dövrün baxışında. II cild: Bakı, 2011. “Azərbaycan qəzetinin redaksiyası, buraxılışa məsul Bəxtiyar Sadıqov. 352 s.

# Продовольственный безопасность и государственная политика

**Гюнель Маликли**
Ведущий научный сотрудник Института Философии, доктор философии по философии, доцент. Азербайджан.
E-mail: gunelmelikova88@gmail.com

**Резюме.** Обновление и прогресс во всех сферах жизни нашей республики хорошо видны. С этой точки зрения, усиление современных тенденций в аграрном секторе и принятие серьезных шагов должны рассматриваться как важное достижение. Увеличение достижений не случайно, оно зависит от определенных факторов. Прежде всего, стоит отметить, что под руководством президента Ильхама Алиева ведутся серьезные реформы в аграрном секторе. Важное значение имеет также укрепление продовольственной безопасности населения, а также создание государственных ресурсов для обеспечения продовольственной безопасности в чрезвычайных ситуациях и стихийных бедствиях. Указы и распоряжения главы государства, соответствующие программы, утвержденные главой государства, расширяют возможности нашей страны в области продовольственной безопасности и создают более надежную почву в этой области.

**Ключевые слова:** государственная политика, аграрный сектор, продовольственная безопасность, продовольственная безопасность, сельское хозяйство.